***ELMİ HESABATLAR***

# AZƏRBAYCAN HEYVANDARLIQ ELMİ VƏ TƏCRÜBƏSİNİN DÜNYA ELMİNDƏKİ YERİ, ƏHƏMİYYƏTİ, BUNLARIN 1954-1978-ci İLLƏRDƏ VERİLMİŞ HESABATLARDAKI ƏKSİ

*Əyyub **BƏŞİROV**,*
*Azərbaycan Heyvandarlar Assosiyasiyasının prezidenti,*
*Rusiya Federasiyası Beynəlxalq Keyfiyyət Problemləri Akademiyasının həqiqi üzvü, akademik*

Elmimizin inkişaf tarixində XX əsr xüsusi bir mərhələni təşkil edir. Bu dövr aparılan elmi tədqiqatların qloballığı, çoxşaxəliliyi, genişmiqyaslılığı, əhatə olunan mövzuların dərinliyi, aktuallığı, zənginliyi, ən başlıcası, elmi, problemlərin həlli yollarının optimallığı, sürətliliyi, irəli sürülən müddəaların, nəzəriyyələrin, əldə olunan elmi nəticələrin təcrübədə təsdiqi, tətbiqi, nəzəriyyə ilə təcrübənin vəhdəti və s. kimi xüsusiyyətləri, cəhətləri ilə səciyyələnir.

XX əsrin elmimizin intibah dövrü kimi dəyərləndirilməsi daha doğru olardı. Alimlərimizin bir çox sahələrdə apardığı tədqiqatlar, etdikləri kəşflər, işləyib hazırladıqları yeni, orijinal metod və texnologiyalar, sistemlər təkcə keçmiş İttifaqda deyil, bütövlükdə, dünya elminin inkişafına böyük təsir göstərdi, təkan verdi.

Məsələn, neft-kimya sahəsində elmimizin korifeyi, akademik Yusif Məmmədəliyevin etdiyi kəşf nəinki dünya elminin inkişafında müstəsna hadisə, hətta ötən əsrdə gedən tarixi proseslərin gedişini dəyişdirən istinad nöqtəsi oldu.

Azərbaycanda tarixən formalaşmış neftçıxarma ənənələri, qazanılmış zəngin təcrübə alimlərimizin neft-kimya elminə gətirdiyi yeniliklər bu sahənin güclü elmi bazasının əsaslarının yaradılması, Bakını dünyada mötəbər elm mərkəzi - "Neft Akademiyası" kimi tanıtdırdı.

Böyük əminliklə, həm də böyük qürur hissi ilə deyə bilərik ki, ömrümüzü sərf etdiyimiz heyvandarlıq, biologiya elmlərində də həmin dövrdə belə bir mövqe, yüksək nüfuz qazanılmışdı.

XX əsrdə heyvandarlıq elmi sahəsində Azərbaycan çox böyük nüfuzlu elmi mərkəz kimi dünya elmi ictimaiyyəti tərəfindən tanınır, təqdir edilirdi. Dünyanın qabaqcıl heyvandarlıq ölkələri Azərbaycanın heyvandarlıq elmi və təcrübəsindən özlərində geniş istifadə edir, bəhrələnirdi. Xüsusən də həmin ölkələrin heyvandarlığında damazlıq sisteminin qurulmasında, yeni cinslərin və cins qruplarının yaradılmasında Azərbaycan elmi məktəbinin yaratdığı yeni metod və texnologiyalarından çox geniş istifadə olunur, öyrənilmiş təcrübələr tətbiq edilirdi.

Keçmiş İttifaqda özünün nüfuz dairəsinə görə iki nəhəng heyvandarlıq elmi məktəbi vardı. Bunlardan biri Moskva, rus-sovet heyvandarlıq elmi məktəbi, digəri isə Azərbaycan elmi məktəbi idi.

Həmin elmi məktəblərə əziz müəllimlərimi, elm korifeyləri akademiklər Viktor Konstantinoviç Milovanov və Firuz Əli oğlu Məlikov rəhbərlik edirdilər.

Azərbaycan elmi məktəbinin coğrafiyası Orta Asiyanı, Şimali Qafqazı, Zaqafqaziyanı əhatə edirdi. Bu bölgələrdə aparılan bütün elmi tədqiqatlar Azərbaycan elmi məktəbi tərəfindən yönəldilirdi. Həmin elmi işlərə bilavasitə akademik Firuz Məlikov rəhbərlik edirdi.

Digər tərəfdən də keçmiş İttifaq respublikalarının, bir çox xarici ölkələrin elmi kadrları Azərbaycan elmi məktəbində yetişdirilir, yüksək səviyyəli elmi işçi kimi formalaşırdı.

Əlbəttə, belə bir elmi məktəbin yaranması heç də təsadüfi deyildi. Əvvəla, Azərbaycanda tarixən güclü, zəngin heyvandarlıq təcrübəsi, ənənələri mövcud idi. Xalqımız heyvandarlıqda yeni cins yaratma, seleksiya, cins tərkibinin yaxşılaşdırılması və s. kimi istiqamətlərdə özünəməxsus, oturuşmuş ənənələr yaratmışdı.

Təbii ki, bu ənənələri, təcrübəni dərindən öyrənən, respublikada heyvandarlıq təcrübəsinin elmi əsaslarını yaradan elmi kadrlar da yetişmişdi. Akademiklər Firuz Məlikov, Mirzə Sadıqov, Musa Musayev, professorlar Ağaxan Ağabəyli, Zülfüqar Verdiyev, Müseyib Mədətov və b. alimlər həmin kadrlar ordusunun önündə gedirdilər.

Üstəlik, Azərbaycanda bu sahədə elmi-təşkilati işlər yüksək səviyyədə qurulmuşdu. Azərbaycan SSR Elmlər Akademiyası (indiki Azərbaycan Milli Elmlər Akademiyası) Azərbaycan SSR Kənd Təsərrüfatı Elmlər Akademiyası, Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq İnstitutu, (Bu iki elm mərkəzinin akademiki Firuz Məlikov yaratmış və müxtəlif vaxtlarda rəhbərlik etmişdir), Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutu (indiki Azərbaycan Dövlət Aqrar Universiteti), Zoologiya İnstitutu və s. kimi elmi tədqiqat və təhsil ocaqları, bir çox elmi təşkilatlar, elmi-istehsalat birlikləri, idarələri, ayrı-ayrı qurumlar mükəmməl təşkil edilmiş, vahid bir sistemdə birləşdirilmiş, nəticədə isə Azərbaycanda heyvandarlıq elminin inkişafını təmin edən dəqiq, vahid, işlək elmi struktur yaradılmışdı.

Bəs, bu sistem, elmi struktur Azərbaycan və dünya heyvandarlıq elminə nə vermişdir?!

Suala cavab olaraq onlarla, yüzlərlə bir-birindən maraqlı faktlar gətirmək, alimlərimizin əldə etdiyi elmi nəticələrdən, rəqəmlərdən bəhs etmək mümkündür. Lakin bunlardan bir neçəsini sadalasaq kifayət edər.

Ötən əsrin birinci yarısının ortalarında güclü camışçılıq məktəbi yaradıldı. Bu məktəbin banisi camışçılıq elminin korifeyi, SSRİ Kənd Təsərrüfatı Elmləri Akademiyasının müxbir üzvü, professor Ağaxan Ağabəyli idi.

1929-cu ildə akademik Firuz Məlikovun rəhbərliyi altında akademik Mirzə Sadıqov, professor Ağaxan Ağabəyli, böyük rus alimi Kaluginin və bir çox başqa azərbaycanlı alimlərin iştirakı ilə Gəncə mahalında Azərbaycan Elmi-Tədqiqat Heyvandarlıq Stansiyası təşkil edildi.

Bu stansiya sonralar Az.ETHİ-nin, Azərbaycan Respublikası Kənd Təsərrüfatı Elmləri Akademiyasının və b. elm ocaqlarının yaradılmasında baza rolunu oynadı.

Akademik Firuz Məlikovun işləyib hazırladığı metodika mükəmməl elmi əsas kimi yeni qoyun cinslərinin yaradılması işində bünövrə, elmi əsas olaraq götürülürdü. Bu metodika əsasında akademik Firuz Məlikovun rəhbərliyi və akademik Mirzə Sadıqovun iştirakı ilə 1948-ci ildə "Azərbaycanın dağ merinosu" yeni qoyun cinsi yaradıldı. 1944-cü ildə Gürcüstanda, sonralar isə Dağıstanda, Kabardin-Balkarda, Tacikistanda, keçmiş İttifaqın bir çox bölgələrində yeni cinslər yaradıldı.

Akademik Firuz Məlikovun elmi rəhbərliyi ilə iribuynuzlu heyvanların yeni cinsləri də yaradıldı. XX əsrin əllinci illərində akademik Firuz Məlikovun və professor Ağaxan Ağabəylinin rəhbərliyi ilə Vladimir Bıstritski, Sabir Qocayev, Şamil Rasizadə və bu sətirlərin müəllifinin yaxından iştirakı ilə Azərbaycanın aborigen, iribuynuzlu heyvanı, inəyi Şvits buğası ilə, eləcə də Azərbaycan zebusunun qanının köçürülməsi ilə (s prilitiem krovi) çarpazlaşdırılması bazasında Azərbaycanın yeni iribuynuzlu heyvan cinsi yaradıldı. 1959-cu ildə təsdiq edilən həmin heyvan Qafqaz-Azərbaycan qonur malı adlandırıldı.

Camışçılıq elmi və təcrübəsi tarixində süni mayalanmanın tətbiqi dünyada ilk dəfə olaraq Azərbaycanda gerçəkləşdi. Həmin ilkin sınaq işlərini 1931-1938-ci illərdə professor Ağaxan Ağabəyli və Müseyib Mədətov apardı.

1951-1954-cü illərdə isə bu sətirlərin müəllifi tərəfindən dünyada ilk dəfə olaraq camışlarda süni mayalanmanın yeni, orijinal metod və texnologiyalarını işləyib hazırlandı. Bu günün özündə də həmin metod və texnologiyalar dünya heyvandarlıq təcrübəsində uğurla tətbiq edilir.

1955-1963-cü illərdə kəl toxumunun - 78° -də (quru buzda), -196°-də (maye azotda) dondurulub uzun müddət saxlanmasının metod və texnologiyalarını. 1954-1958-ci illərdə yeni, orjinal metod, (bu metod dünya elmində Bəşirov metodu adlanır - red.) kəlin çoxalma üzvünün cərrahi yolla 30-45° bucaq altında kəsilib yana çıxarılması metodu, 1954-1956-cı illərdə camışların yay-düşərgə şəraitində yemləndirib saxlanılması, bəslənilməsi metodunu da hazırladıq. Bu metodlar Hindistan, Pakistan, Misir, Bolqarıstan. İtaliya və s.

kimi qabaqcıl camışçılıq ölkələrində geniş tətbiq edilir.

Haqqında bəhs etdiyimiz metod və texnologiyaların işlənib hazırlanması Azərbaycan və dünya camışçılıq elminə gətirilmiş yeniliklərdir. Bu yeniliklər heyvandarlıq təcrübəsinin elmi əsasını möhkəmləndirən dayaqlardır, sütunlardır.

Məhz bu təməl, möhkəm elmi bünövrə Azərbaycanda güclü damazlıq sisteminin qurulmasına geniş imkan yaratdı.

Bu mənada gətirdiyimiz bir fakt böyük maraq doğurur, dediklərimizi sübut edir. 1954-1987-ci illər arasında Azərbaycanda 1 respublika, 2 vilayət, 56 rayon dövlət döllük-damazlıq stansiyaları, 1500-ə qədər süni mayalama məntəqələri, həmçinin 1951-ci ildə Neftçala rayonunun Xolqarabucaq kəndində, 1954-cü ildə Sabirabad rayonunun Sarıcadar kəndində, Kür-Araz Təcrübə Stansiyasında, 1956-cı ildə Az.ETHİ-da, 1972-1976-cı illərdə Neftçala rayonunun M.B.Qasımov adına sovxozda yaradılmış elmi-tədqiqat süni mayalama laboratoriyaları fəaliyyət göstərirdi.

1950-1987-ci illərdə Azərbaycanda 294 - damazlıq heyvandarlıq təsərrüfatı var idi. Bunlardan da 46 - Azərbaycan camışı üzrə idi. Şəkidəki Daşüz camışçılıq təsərrüfatı isə keçmiş İttifaqda yeganə damazlıq zavodu idi. Professor Ağaxan Ağabəylinin rəhbərliyi və bu sətirlərin müəllifinin iştirakı ilə yaradılmış "Azərbaycan" camış cinsinin nüvəsi də məhz bu zavodda qoyuldu.

Azərbaycanda qurulmuş damazlıq sisteminin zəngin təcrübələri, işləyib hazırladığımız süni mayalanmanın metod və texnologiyaları dünya ölkələrində geniş tətbiq edildi. Çili, Hindistan, Əlcəzair, Bolqarıstan, İtaliya, Əfqanıstan öz damazlıq heyvandarlıq sistemlərini Azərbaycanda qazanılmış təcrübələr əsasında qurdular.

1964-1966-cı və 1968-1970-ci illərdə Əlcəzairdə apardığımız elmi tədqiqatların, araşdırmaların əsasında ölkədə damazlıq heyvandarlıq sistemi yaradıldı. Süni mayalama stansiyaları təşkil edildi. Müasir texnologiyalardan istifadə olunması, süni mayalanmanın geniş tətbiqi qısırlığı aradan qaldırdı.

Hər 100 baş ana inəkdən 100-102 buzov, hər 100 baş ana qoyundan 111 bala alındı. Halbuki Əlcəzairdə ötən əsrin 60-cı illərin ortalarına qədər 100 baş ana inəkdən 58 baladan yuxarı göstərici tarix boyu alınmamışdı.

Bizim elmi tədqiqatlarımızın nəticələri, təcrübələrimiz əsasında əldə edilmiş həmin göstəricilər Şimali Afrika ölkələri üzrə dünya rekordu idi.

O illərdə həmin bölgədə, həmin ölkələr arasında ilk dəfə olaraq Əlcəzairdə damazlıq-seleksiya, döllük-damazlıq, süni mayalama stansiyalarında, məntəqələrində çalışacaq mütəxəssislər korpusu yaradıldı.

1961-ci ildə Hindistandan seçib göndərdiyimiz rekord camış genefondu ("Mürrəh" cinsli camış və kəllərin) və Azərbaycan damazlıq təcrübəsinin əsasında Bolqarıstanda professor Aleko Aliksiyev və bu sətirlərin müəllifi birlikdə "Bolqar mürrəhi" cinsi yaradıldı. Həmin cins bu gün də dünyada ən məhsuldar cins sayılır.

1964-cü ildə, sentyabrın 6-dan 14-nə kimi İtaliyanın Trento şəhərində keçirilən V Beynəlxalq Elmi Konfransa dəvət almağımız, bu mötəbər elmi məclisdə "Camışların törəyib çoxalmasının biologiyası və süni mayalandırılması" mövzusundakı mürüzəmizin qızıl medala layiq görülməsi təkcə bir alimin uğuru deyildi. Bu Azərbaycan heyvandarlıq elmi məktəbinin beynəlxalq elmi ictimaiyyət tərəfindən tanınması, təqdir edilməsi, onun böyük nüfuzunun təzahürü idi.

1971-ci ildə Sov.İKP Mk-nın katibi A.P. Kirilenko Çiliyə gedəcək iki nəfər mütəxəssisin, alimin, Smirnovun və bir də bu sətirlərin müəllifinin sənədlərini Baş katib Leonid İliç Brejnevə təqdim edir. O, - Azərbaycan elminin nəzəriyyəsi də var, təcrübəsi də, - deyib, Azərbaycan heyvandarlıq elmi məktəbinə üstünlük verir.

Biz 1971-ci ilin noyabr-dekabr aylarında Sovet hökumətinin qərarı ilə ekspert-alim, mütəxəssis kimi Çilidə ezamiyyətdə olduq. Bu müddət ərzində həmin ölkənin iqlim şəraitini, otlaqlarını, çöl-çəmən, meşə, ot örtüklərini, yağan yağıntının miqdarını, ayrı-ayrı bölgələrdə heyvandarlığın inkişaf perspektivlərini, maddi-texniki bazasını, sahənin inkişafına təsir edən bütün amilləri araşdırdıq, tədqiq etdik. Aparılan tədqiqatların məcmuu olaraq "Çilinin heyvandarlığı" adlı əsəri ərsəyə gətirdik.

Əsərdə Çilinin heyvandarlığının vəziyyəti, sahə ilə bağlı amillər, problemlər dərindən analiz olunur. Problemlərin həlli yolları tapılıb göstərilir. Gətirilən dəqiq rəqəmlər, faktlar, tərtib edilən cədvəllər aparılan müşahidələrin, analizlərin, araşdırmaların nəticəsi kimi Çilinin heyvandarlığı haqqında dolğun təsəvvür yaradılır, geniş məlumat verilir. Əsər ötən əsrdə Çilinin heyvandarlığına həsr edilmiş bir sanballı elmi-tədqiqat əsəri kimi Azərbaycan elminin dünya elminə verdiyi töhfələrdən biri oldu.

Bu əsərdən başqa biz Çilidə damazlıq heyvandarlığın inkişafı, proqressiv metod və texnologiyaların tətbiqi, kadr hazırlığı kimi çoxsaylı elmi problemlərin həllini gerçəkləşdirilməsini nəzərdə tutan 10 illik Plan-proqram da işləyib hazırladıq. Dərin elmi əsaslara söykənən bu proqramın həyata keçirilməsi Çilinin heyvandarlığının inkişafının təkanverici qüvvəsi, təminatı demək idi.

Çilidə dövlət damazlıq sisteminin, damazlıq-seleksiya işlərinin, damazlış-döllük, süni mayalama stansiyalarının, məntəqələrinin təşkilində, yenidən qurulmasında, fəaliyyətlərinin yönəldilməsində, elmi-nəzəri məsələlərin təcrübədə gerçəkləşdirilməsində Azərbaycan elmi və təcrübəsinin çox böyük rolu və əhəmiyyəti oldu. Daha dəqiq desək, həmin ölkənin damazlıq sistemi bünövrə kimi Azərbaycan elmi və təcrübəsi üzərində quruldu.

Çilinin o vaxtkı prezidenti Salvador Alyendenin Sovet lideri Leonid Brejnevə göndərdiyi teleqramdakı sözləri isə Azərbaycan aliminin əməyinə, Azərbaycan elminə verilən yüksək qiymət idi: - "Mister Eyyub Bəşirovun 45 gündə gördüyü iş Çilinin birinci dərəcəli elmi-tədqiqat institutlarının altı ayda gördüyü işlərə bərabərdir".

Bu sözlər həm də bütövlükdə dünya aqrar elminin inkişafına, azacıq da olsa, göstərilmiş xidmətin qarşılığıdır.

Ötən əsrin yetmişinci illərin əvvəllərindən başlayaraq ümumdünya əhəmiyyətinə malik "Kəl törədicilərinin dondurulmuş toxumunun standartının hazırlanması" mövzusunda elmi-tədqiqat işlərinə başladıq. Elmi tədqiqatların sifarişi BMT-nin Beynəlxalq Standartlaşdırma Komitəsi tərəfindən verilmişdi. Komitənin Katibliyi Moskva şəhərində yerləşirdi. Mövzu üzərində elmi-tədqiqat işlərinə beş, 1971-ci ildən başlanıldı. Belə bir iş dünya aqrar elmi tarixində ilk dəfə idi ki, aparılırdı.

Elmi-tədqiqat işinin elmi məsləhətçiləri rus-sovet aqrar elminin nəhəng simaları akademiklər Viktor Konstansinoviç Milovanov və Lev Konstantinoviç Ernst idi.

1976-ci ildə kəl toxumunun orijinal standartı BMT-nin Beynəlxalq Standartlaşdırma Komitəsinin Moskvadakı Katibliyinə, Ümumittifaq Heyvandarlıq İnstitutuna, VASXNİL-ə, V.K.Milovanova, L.K.Ernstə təhvil verdik. Bu gün də dünya aqrar elmi və təcrübəsi bu standartla işləyir.

Haqqında bəhs etdiyimiz, eləcə də 1954-1978-ci illər ərzində apardığımız digər tədqiqatlar haqqında aşağıda verilmiş elmi hesabatdarda Azərbaycan heyvandarlıq elminin dünya elminə gətirdiyi yeniliklər öz əksini tapmışdır. İstər tədqiqatçılar, mütəxəssislər, istərsə də adi oxucular göstərilən hər hansı bir mövzuya aid səhih, dəqiq, həm də geniş, müfəssəl bilgilər əldə edə bilər.

Əvvəla, bu hesabatlarda ötən əsrdə Azərbaycan heyvandarlıq elminin qaldırdığı həlli vacib elmi problemlər aydın göstərilir. Məsələn, "Damazlıq işlərinin və kənd təsərrüfatı heyvanlarının yetişdirilməsinin nəzəri əsasları", "Kənd təsərrüfatı heyvanlarının süni mayalandırılması və çoxalmasının biologiyası", "Kənd təsərrüfatı heyvanlarının toxumunun saxlanılması", "Azərbaycan şəraitində kənd təsərrüfatı heyvanlarının qısırlığının aradan qaldırılması metodlarının hazırlanması və tətbiqi", "Kuba Respublikasından gətirilmiş zebuların Azərbaycan şəraitinə adaptasiyası prosesində bioloji və məhsuldarlıq xüsusiyyətləri", "Azərbaycanda qarğıdalının becərilməsinin aqrotexniki üsallarının işlənib hazırlanması" kimi çoxsaylı elmi məsələləri haqqında çox geniş və dəqiq hesabatı verilir.

Oxuculara çatdırılan bütün hesabatlar aparılmış dərin tədqiqatların, dəfələrlə dəqiqləşdirilmiş elmi nəticələrin məcmudur. Hesabatlarda göstərilən hər hansı bir rəqəm, ya tək bircə fakt belə, göydəndüşmə yox, müxtəlif araşdırmalardan əldə edilmiş nəticələrdir. Bu nəticələr də öz təsdiqini aparılan təcrübələrdə tapmışdır. Hər bir hesabat əvvəlcə elmi-tədqiqat laboratoriyasının kollektivində, Az.ETHİ-nin, Azərbaycan Dövlət Kənd Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət Aqrar Universiteti - red.) Azərbaycan Respublikası Kənd Təsərrüfatı Elmlər Akademiyası, Azərbaycan Respublikası Elmlər Akademiyası, Kənd Təsərrüfatı Nazirliyi, Moskvada, ÜHİ-da, VASXNİL, SSRİ Elmlər Akademiyası, SSRİ Kənd Təsərrüfatı Nazirliyinin elmi şuralarında geniş müzakirə edilib, yoxlanılıb, təsdiq edilmişdir.

Dövrün nəhəng alimləri, akademiklər Yusif Məmmədəliyev, Firuz Məlikov, Viktor Konstantinoviç Milovanov, Leç Konstantinoviç Ernst, professorlar Ağaxan Ağabəyli, İrina İvanovna Sokolovskaya və b. pardığımız tədqiqatlarla tanış olmuş, tövsiyələrini, məsləhətlərini vermiş, müsbət fikirlərini bildirmişlər.

Bütün bu işlər tək bir alimin deyil, ayrı-ayrı vaxtlarda rəhbərlik etdiyimiz elmi kollektivlərin birgə gərgin əməyinin məhsulu, Azərbaycan elminin nailiyyətləridir. Həm də aparılan tədqiqatların rəsmi surətdə elmi məsləhətçiləri olmuş, elm fədailərinin, ustadlarımızın, əziz müəllimlərimizin çox böyük zəhmət payı var.

Bəs, bu tədqiqatlardan alınan əsas nəticələr, sübuta ehtiyacı olmayan müddəalar hansılardır? Bunların hamısı haqqında danışmağa, sadalamağa lüzum yoxdur. Hesabatlardan aydın görünür. Amma birinin altından qırmızı xəttlə çəkib, göstərmək istərdik. Süni mayalamanın yeni orijinal metod və texnologiyalarının bütün heyvandarlıq təsərrüfatlarında genişmiqyaslı tətbiqi. Tamamilə 100 % süni mayalamaya keçilməsi.

Bu heyvandarlıq təcrübəsində qarşıya çıxan köklü problemlərin, sağlam balaların alınması, qısırlığın aradan qaldırılması, heyvanların cins tərkibinin yaxşılaşdırılması, naxırların, sürülərin sağlamlığının yüksəldilməsi, xəstəliklərə davamlılığın möhkəmləndirilməsi, yaşama qabiliyyətinin, məhsuldarlığın yüksəldilməsi kimi və s. doğru, dürüst, yeganə yoludur.

Bunun elmini və təcrübəsini dünya elminə ilk olaraq Azərbaycan heyvandarlıq elmi məktəbi vermişdir.

Söylədiyimiz bu qədər fikirlər aşağıda verilən elmi-hesabatlarda təsdiq olunur. Həmin hesabatlar həm də XX əsrdə heyvandarlıq elminin inkişaf istiqamətlərini aydın göstərir. Məhz bu baxımdan elmi hesabatlar indiki tədqiqatçılar, araşdırmaçılar üçün zəngin mənbə, xəzinədir. Onlar bunlardan istifadə edərək heyvandarlıq elminin inkişafına təkan verəcək yeni əsərlər yaza, yeni üfüqlər aça bilərlər.